# Şura yığıncağı keçirilmişdir



30 mart 2017-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısı yanında şuranın yığıncağı keçirilmişdir.

RİH başçısı yanında şura üzvlərinin, inzibati ərazi nümayəndələrinin, bələdiyyə sədrlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdiyi müşavirədə Azərbaycan Respublikası Prezidentinin "İcra intizamının möhkəmləndirilməsi və icra nəzarətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Fərmanına uyğun olaraq RİH-nin inzibati ərazi nümayəndəliklərinə, idarə,



müəssisə və təşkilatlara yönəldilən sərəncam, tövsiyə və məktubların icrası vəziyyəti, Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan" qəzetində "Vətəndaşların müraciətlərinə baxılması, onlara göstərilən diqqət və qayğının artırılması və qarşıda duran vəzifələr"ə dair dərc edilmiş məqaləsində göstərilən irad və təkliflər, həmçinin digər cari məsələlər geniş müzakirə olunmuşdur.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yığıncağı açaraq, gündəlikdəki məsələlərin aktuallığını diqqətə çatdırmış, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda uğurla həyata keçirilən islahatların nəticəsində əhalinin sosial rifahının yaxşılaşdırılması, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni iş yerlərinin yaradılması istiqamətində mühüm işlər görüldüyünü qeyd etmişdir.

Müzakirələr zamanı eləcə də torpaqlarımızın 20 faizinin işğal altında olmasını nəzərə alaraq respublikamızda müdafiə və hərbi quruculuq məqsədilə həyata keçirilən tədbirlərin hərbi sirr kimi qorunması üçün əhali arasında "Dövlət sirri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunlarına ciddi əməl edilməsi istiqamətində maarifləndirmə işlərinin aparılması tövsiyə edilmişdir.

Şura yığıncağında yaz mövsümünün başlaması ilə əlaqədar kənd təsərrüfatı işlərinin sürətləndirilməsi, xüsusilə tütünçülüyün, baramaçılığın, fındıqçılığın inkişaf etdirilməsinə diqqətin artırılması, meşə ərazilərində ağac əkininin sürətləndirilməsi, yol kənarlarında yaşıllıqların salınması və qorunması üçün fikir mübadiləsi aparılmış, bu sahədə yerli icra nümayəndələri ilə bələdiyyələrin, idarə və müəssisələrin vəzifələri müəyyənləşdirilmişdir. Yerli icra nümayəndələrinə eyni zamanda əhali tərəfindən işlədilən enerji daşıyıcılarının və kommunal xərclərin dəyərinin ödənilməsi ilə əlaqədar yaşayış məntəqələrində təbliğat işlərinin genişləndirilməsi tövsiyə olunmuşdur.

Yığıncaqda həmçinin qış mövsümünün başa çatması ilə bağlı şəhərdə, qəsəbələrdə və kəndlərdə fəaliyyət göstərən sosial obyektlərin ərazilərinin təmizlənilməsi, səliqəyə salınması və abadlaşdırılması tapşırılmışdır.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev şura yığıncağını yekunlaşdırmışdır.

✍ **Varis YAQUBOV.**
**İlkin Vəlizadə.**
**«Qəbələ».**

# Şəhid leytenant Sahil Şirinovun xatirəsi anılıb

Ötən ilin aprel döyüşlərində şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi respublikamızın bütün bölgələrində keçirilən anım mərasimləri ilə yad edilir.

Aprelin 6-da Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və RİH aparatının kollektivi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon



şöbəsinin zabitləri, hüquq-mühafizə orqanlarının əməkdaşları idarə və təşkilat rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri aprel döyüşlərində şəhid olan həmyerlimiz leytenant Sahil Şirinovun xatirəsini ehtiramla anıblar.

Mərasim şəhidin doğulub boya-başa çatdığı Bum qəsəbəsində təşkil olunub. Əvvəlcə şəhidin məzarı ziyarət edilib, Qurani-Kərimdən ayələr və ruhuna dualar oxunub.

Anım mərasimində çıxış edənlər aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən və qazanılan qələbədən danışıblar. Dörd günlük döyüşdə düşmənin ordumuzun hərbi qüdrəti qarşısında vahiməyə düşdüyü bildirilib. İşğalçı ermənilərin Azərbaycan əsgərinin hər an qələbə qazanmaq əzmində olduğunu anladıqları qeyd edilib.

Sahil Şirinovun qohumları, müharibə iştirakçıları, qəsəbə ağsaqqalları çıxış edərək onun cəbhədə göstərdiyi qəhrə-



manlıqdan, ordumuzun uğurlarından söz açıblar. Çıxışlarda Azərbaycan xalqının öz torpaqlarını heç vaxt güzəştə getməyəcəyi bildirilib. Aprel döyüşlərinin hərbi qüdrətimizi Ermənistana bir daha nümayiş etdirdiyindən, bütün dünyanın ordumuzun bu döyüşlərdə yüksək peşəkarlığının, qəhrəmanlığının şahidi olduğundan, eləcə də Ermənistan ordusunun "yenilməzliyi", "hərbi qüdrəti" haqqında düşmənin yaydığı mifə ciddi zərbə vurmasından və erməni ictimaiyyətini kökündən sarsıtmasından, gənclərimizin Vətən sevgisindən, əsgərlərimizin döyüşlərdə göstərdikləri şücaətdən, Silahlı Qüvvələrimizin gücündən, xalq-ordu birliyinin sarsılmazlığından danışılıb.

Qeyd edilib ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi leytenant Sahil Şirinovun da əziz xatirəsi daim qəlblərdə yaşayacaq.

Sonra ehsan süfrəsi açılıb.

Qeyd edək ki, Sahil Şirinov ölümündən sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən "İgidliyə görə" medalı ilə təltif olunub. O, ötən ilin aprelində cəbhənin Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin təxribatının qarşısını alarkən şəhid olub.

***«QƏBƏLƏ».***
**Fotolar İlkin Vəlizadənindir.**